**UOT 82.316.3**

**RASİM HÜSEYNOV***

# ƏHMƏD YƏSƏVİ VƏ ONUN AZƏRBAYCANDAKI TƏDQİQATÇILARI

*XII əsrin məşhur mütəfəkkir-şairi, ortaq türk ədəbiyyatının ilk mütəfəkkirlərindən, türk dilində sufizm ədəbiyyatının ilk yaradıcılarından olan Xoca Əhməd Yəsəvi şəxsiyyəti və elmi-fəlsəfi irsinin öyrənilməsi, tədqiq edilməsi, yeni məfkurə işığında araşdırılması günümüzün aktual və vacib səhifələrindən biridir.*

*Bütün dünyada olduğu kimi Əhməd Yəsəvinin yaradıcılığına Azərbaycanda da böyük rəğbət var və təsadüfi deyil ki, onun dərin məzmunlu şerləri və fəlsəfi-dini görüşləri həmişə tədqiqatçılarımızın maraq dairəsində olub və bu gün də belədir. Bu sırada Ə. Mirəhmədovun, B. Abdullanın, P. Xəlilovun, F. Bayatın, G. Əliyeva-Kəngərlinin, S. Şərifovanın və s. tədqiqatçıların adını xüsusi qeyd etmək lazımdır.*

**Açar sözlər:** *Əhməd Yəsəvi, "Divani-Hikmət", şeir, heca, təsəvvüf, filosof, hikmət, milli dil, türklər.*

Yaşadığımız dövrdə Əhməd Yəsəvi irsinin təkcə Türk dünyasının və hətta bütün İslam aləminin deyil, ümumdünya mədəniyyət xəzinəsinin mühüm bir tərkib hissəsinə çevrildiyi hər kəsə məlumdur. Bununla belə, onun zəngin yaradıcılığı türkdilli məkanda daha yüksək qiymətləndirilir. Adını tarixə böyük ədib, şair, dilçi, filosof və din xadimi kimi həkk etdirməyi bacara Əhməd Yəsəvinin dünya mədəniyyətinin inkişafına göstərdiyi təsir beynəlxalq ictimaiyyət tərəfindən sorğu-sualsız qəbul edilir. O, Batı Türkistanda, bugünkü Qazaxıstan ərazisinsə yerləşən Çimkənt şəhərinin şərqində, Tarım çayına tökülən Şahyar çayının kiçik bir qolu olan qarasu üzərindəki Sayram qəsəbəsində dünyaya göz açmışdır. Lakin bəzi qaynaqlarda onun Yəsidə, təni bugünkü Türkistan şəhərində doğulduğu bildirilməkdədir.

Əhməd Yəsəvinin doğum tarixi dəqiq olaraq məlum deyildir. Ancaq Yusuf əl-Həmedaninin (ö. 1140-41) şagirdi və onun xəlifələrindən olduğu diqqətə alınarsa, XI əsrin ikinci yarısında dünyaya gəldiyini söyləmək mümkündür. Sayramın tanınmış şəxsiyyətlərindən olan və kəramətləri və mənqibələri ilə tanınan atasının Həzrət Əli soyundan gəldiyi qəbul edilən Şeyx İbrahim olduğu hesab edilir. Anasının isə Şeyx İbrahimin xəlifələrindən Şeyx Musanin qızı Ayşə Xatun olduğu bildirilir. Şeyx İbrahimin ikinci övladı olan Əhməd Yəsəvî öncə anasını, ardından da atasını itirmiş, qısa bir müddet sonra Yəsi şəhərinə getmiş və orada məskunlaşmışdır.

Bütün dünyada olduğu kimi Yəsəvinin yaradıcılığına Azərbaycanda da böyük rəğbət var və təsadüfi deyil ki, onun dərin məzmunlu şerləri və fəlsəfi-dini görüşləri həmişə tədqiqatçılarımızın maraq dairəsində olub və bu gün də belədir. Deyilənlərə ən gözəl sübut kimi Ə. Mirəhmədovun "Yəsəvi və yəsəvilik Azərbaycanda" (Mirəhmədov Ə., 1993), B. Abdullanın "Yəsəvilik və Azərbaycanda şaman-dərviş mədəniyyəti" (Abdulla B., 2018), P. Xəlilovun "Əhməd Yəsəvi" (Xəlilov P. İ., 1997), F. Bayatın "Xoca Əhməd Yəsəvi və Xalq sufizminin bəzi problemləri" (Bayat F., 1997), G. Əliyeva-Kəngərlinin "Sufizm" (Əliyeva-Kəngərli G., 2014), S. Şərifovanın "Mənəvi-mədəni qaynaqlarımız: Əhməd Yəsəvinin bədii və fəlsəfi-dini irsi" (Şərifova S., 2016), B. Xəlilovun "Türkün hikmət xəzinəsi: Xoca Əhməd Yəsəvi" (Xəlilov B., 2010), Ə. Mustafanın "Xoca Əhməd Yəsəvi Türküstandan doğan bir türk günəşi" (Mustafa Ə., 2011), S. Həsənovanın "Əhməd Yəsəvi və Azərbaycan filologiyası" (Həsənova S., 2011), T Novruzovun "Genetik yaddaş üstündə köklənmiş yaddaş və yaxud XocaƏhməd Yəsəvi irsinə yeni baxış" (Novruzov T., 2013) kimi əsərlərini və s. göstərmək olar.

Bunlaradan Bəhlul Abdulla Xoca Əhmədin yaşayıb fəaliyyət göstərdiyi dövrün ictimai-tarixi səciyyəsini verib, mütəfəkkiri həm də "möcüzələr göstərmək qüdrəti tapmış və övliya

mərtəbəsinə ucalan şaman" kimi xarakterizə edib. Alimin fikrincə, yəsəviliyin Azərbaycan ictimai, ədəbi-mədəni fikrinə nüfuzu Nəsimi, Xətai, Füzuli kimi klassik şairlərin, habelə Dirili Qurbani, Miskin Abdulla, Abbas Tufarqanlı və başqa saz-söz sənətkarlarının əsərlərindəki təsəvvüfi motivlərin kökləri Xoca Əhməd Yəsəvidən qaynaqlanıb.

Yuxarıda təqdim etdiyimiz siyahıda adı çəkilən müəlliflərdən S. Şərifova Əhməd Yəsəvinin bədii yaradıcılığının janr və bədii üslub axtarışları ilə səciyyələndiyini və Orta Asiya xalqlarının ədəbiyyatlarının özəl janr sistemlərinin formalaşmasına təkan verdiyini qeyd edərək, Əhməd Yəsəvinin "Vücudnamə" əsərində, həm klassik, həm də aşıq şeiri janrların xüsusiyyətlərinin müşahidə edildiyini diqqətə çatdırır və təəssüf hissi ilə bildirir ki, "Vücudnamələr" əvvəllər yalnız aşıq şeiri janrı kimi tədqiq edilib. Sufi rəmzlərindən aşıq yaradıcılığında geniş istifadə edilməsi vücudnamələri aşıq ədəbiyyatının tərkib hissəsinə çevirib. Misal kimi Əhməd Yəsəvinin "Divani hikmət"ini göstərmək olar. Əhməd Yəsəvi özü qələmə aldığı mənzumələri, şeirləri hikmət adlandırıb. Hikmət Əhməd Yəsəvi yaradıcılığında metajanr kimi çıxış edir. Əhməd Yəsəvinin yaradıcılığında "Divani-hikmət" əsəri xüsusi yer tutur. "Divani-hikmət" əsəri qafiyə sistemi və vəzn baxımından qoşmalara bənzəyən dördlüklərdən və əruz vəznində yazılmış qəzəllərdən tərtib edilib.

Tədqiqatçı yazır ki, Əhməd Yəsəvinin xalq şeir ənənəsinə uyğun qələmə almış olduğu şeirlərin əksər qismi yeddi (4+3=7) və on iki (4+4+4=12) heca bölgüsündədir. Ədəbiyyatşünaslıqda on iki hecalı şeir növü on bir hecalıya çevrilmişdir. Əhməd Yəsəvinin yaradıcılığında əruz vəznində qələmə alınmış poetik nümunələrə də rast gəlmək mümkündür. O, ərəb və fars dillərini mükəmməl bilib, öz görüşlərinin təbliğində isə əsasən milli dilə üstünlük verməsi ilə diqqəti cəlb edir (Şərifova S., 2016).

Tədqiqatlarında "Əhməd Yəsəvi" mövzusuna diqqət ayıran araşdırmaçılarımızdan biri də H. Binnətovadır. O özünün

"Türküstan piri – Xoca Əhməd Yəsəvi və Azərbaycan" adlı məqaləsində haqlı olaraq yazır ki, XX əsrin ilk iki onilliyində də Əhməd Yəsəvi irsinin, əsərlərinin tədqiqi məsələsi tanınmış ədəbiyyatşünasların diqqət mərkəzində olub, onlardan Əmin Abid, Salman Mümtaz və Abdulla Şaiq kimi ədiblərimiz Əhməd Yəsəvi yaradıcılığına müraciət ediblər. Fəqət 20-ci illərdə sovet ideologiyasına görə o ateist kimi qələmə verilməli idi və bu səbəbdən də Əhməd Yəsəvi barədə ateizm hökmü verilmişdi. Məhz həmin səbəbdən də dövrün ziyalıları Əhməd Yəsəvi irsinə dini-fəlsəfi baxımdan yox, elmi-ədəbi kontekstdə yanaşırdılar. Onun hikmətlərini oxucuların diqqətinə məhz bu yanaşma ilə çatdırırdılar.

Adı bütün türk ellərində böyük hörmət və ehtiramla yad edilən təsəvvüf-irfan aşiqi Xoca Əhməd Yəsəvinin həm də qüdrətli söz ustadı-şair kimi də tanındığını, buna görə Yəsəvi Azərbaycanda da söz sənəti araşdırıcılarının diqqətini çəkdiyini vurğulayan H. Binnətova şairin poetik dünyası, bədii irsi barədə çeşidli fikirlər söyləndiyini qeyd edərək yazır ki, ötən yüzilliyin əvvəlində böyük mütəfəkkir, türk dünyasının ideoloqu Əli bəy Hüseynzadə "Türklər kimdir və kimlərdən ibarətdir?" əsərində Əmir Teymurun türk mədəniyyətinə etdiyi xidmətləri xatırlayarkən, Əhməd Yəsəvi türbəsini də yada salır. Müstəqillik illərində ateizm pərdəsi ləğv edildi, dini söz azadlığı meydan aldı. Bu zaman ilk olaraq dini təsəvvüf alimlərin, müdriklərin ədəbi söz boxçaları açıldı. Elmi araşdırmalarla, pedaqoji çalışmalarla dini elmi-fəlsəfi əsərlər araya-ərsəyə gətirildi. Belə tarixi şəxsiyyətlərdən, filosof mütəfəkkirlərdən biri də Əhməd Yəsəvi oldu (Binnətova H., 2018, s. 537-538).

Məlum olduğu kimi, şairin ən böyük xidmətlərindən biri onun İslam dinini sadə türklərin daha dərindən dərk etməsi üçün təsəvvüfdən istifadə etmiş və bu ruhda çox sayda mənzumələr yazmışdır. Bu forma və məzmun türk üçün asanlıqla başa düşülən idi. Beləcə, Əhməd Yəsəvi təsəvvüf ruhunda yazdığı əsərlərlə islamın türklər tərəfindən daha dərindən öyrənilməsi və

dərk edilməsi ilə bağlı yeni bir məktəbin əsasını qoymuşdur. O, təsəvvüflə yüz minlərlə türkün ruhunu, qəlbini fəth etdi. Bu da sadə xalq kütlələrinin İslama daha dərindən bağlanmasına, Haqqa gedən yolu özlərinin gündəlik həyatına bir nur edərək yaşamasına, onunla nəfəs alıb-verməsinə gətirib çıxardı. Bu müstəvidə də Yəsəvilik sadəliyin, fədakarlığın və bütün yaradılmışlara olan ilahi eşqin parlaq bir nümunəsi kimi min illər boyu yaşamaqdadır.

Bunu, demək olar ki, bütün tədqiqatçılar xüsusi olaraq qeyd edirlər. Eyni fikri təsdiqləyən H. Binnətova daha sonra yazır ki, Əhməd Yəsəvinin əsas əsəri sayılan "Divani-hikmət" əslində müəllifdən əsrlərcə sonra Yəsəvi dərvişləri tərəfindən tərtib edilmişdir. Bu səbəbdən ərin mətninin dili XI əsrin deyil, daha sonrakı yüzilliklərin dil xüsusiyyətlərinə malikdir. "Divani-hikmət" qafiyə sistemi və vəzn baxımından qoşmalara bənzəyən dördlüklərdən və əruz vəznində yazılmış qəzəllərdən ibarətdir (Binnətova H., 2018, s. 538-539).

Eyni fikri P. Əlioğlu da təsdiqləməkdədir. O, "Xoca Əhməd Yəsəvi yaradıcılığı və Azərbaycan ədəbiyyatı" adlı məqaləsində yazır ki, Xoca Əhməd Yəsəvinin bədii, poetik yaradıcılığının ən böyük əhəmiyyəti onun fikirlərini geniş xalq kütlələrinin anladığı dildə yazmasından, islam, təsəvvüf ehkamlarını, yəsəviliyi qısa müddətdə geniş coğrafiyada - Orta Asiya, Volqaboyu, Azərbaycan və Anadoluda yaya bilməsindən ibarətdir. "Araşdırıcılar göstərmişlər ki, türkdilli əhali arasında islamı və təsəvvüfü ən çox yayan ilahi eşqdən güc alan türk mütəsəvvifləri, dərvişlər olmuşlar. Şeirdə Yəsəvi ənənələrini ən çox davam etdirənlər də türkdilli mütəsəvviflər, şairlər olmuşlar. Əhməd Yəsəvinin şeirləri ilə türkdilli şeirin digər böyük ustadı İmadəddin Nəsimi (1369-1417) yaradıcılığı arasında bir neçə istiqamətdə müqayisələr aparmaq olar. Yəsəvi daha erkən mərhələdə şeirlə yazdığı hikmətlərində sadə türk dilində dini, sufiyanə, fəlsəfi fikirləri ifadə etmək örnəyini vermişdir. Ərəb və fars dillərini mükəmməl bilən Xoca Əhməd hikmətlərindən birində öz şeirlərini türkcə yazdığına görə fəxr etdiyini bildirir:

Miskin, zəif Xoca Əhməd, yeti peştinga rəhmət,
Farsi tilni biliban xub itadur türkini.
Çevirməsi:
Miskin, zəif Xoca Əhməd, yeddi cəddinə rəhmət,
Fars dilini bilsə də, türkidə gözəl danışır.

Türkdilli poeziyada bu ənənəni davam etdirən ən böyük sənətkarlardan biri İmadəddin Nəsimidir. O, bütün türk şeirində fəlsəfi poeziyanı yüksək zirvəyə qaldıran, divan ədəbiyyatının inkişafında müstəsna xidmətləri olan dahi sənətkardır. Dilimizin şeir-qəzəl və dini-fəlsəfi üslublarının tam formalaşmasında onun rolu həlledici olmuşdur. Şairin dini-fəlsəfi şeirlərinin əsas fərqləndirici üslubi xüsusiyyətləri xitabların, nidaların, çağırışların çoxluğundan ibarətdir. Bu cür şeirlərində Nəsimi əqidəsi uğrunda qorxmaz, fədakar bir mübariz kimi gözlərimiz önündə canlanır. Fikirlərini geniş xalq kütlələri arasında yaymaq istəyən Nəsimi həmişə dövrünün canlı xalq danışıq dilindən bəhrələnmiş, şeirlərini sadə türkcə yazmağa çalışmışdır".

Əhməd Yəsəvinin Azərbaycandakı çağdaş tədqiqatçılarından danışarkən Əli Şamilin də adını qeyd etmək lazımdır. O, " Əhməd Yəsəvi. Şeirləri dildən-dilə keçərək Türk dünyasını dolaşan, böyük sufi şairi və filosofu Əhməd Yəsəvinin həyat və yaradıcılığı" məqaləsində Əhməd Yəsəvinin adını ilk dəfə 1968-ci ildə, Azərbaycan Dövlət Unversitetinin birinci kursunda oxuyarkən eşitdiyini, Azərbaycan şifahi xalq ədəbiyyatından dərs deyən müəllimi Vaqif Vəliyevin bayatılar haqqında mühazirə oxuyarkən Əmin Abidin "Azərbaycanı öyrənmə yolu" dərgisinin 1930-cu ildə yayımlanan 4-5-ci sayındakı "Türk xalqları ədəbiyyatında mani nevi və Azərbaycan bayatılarının xüsusiyyəti (Beş bin bayatı-mani üzərində yapılmış bir tətöbbənamədir)" məqaləsini də oxunmağı tövsiyyə etdiyini bildirir (Şamil Ə., 2018).

Əli Şamilin Əhməd Yəsəviyə həsr etdiyi digər məqalə "Əhməd Yəsəvi. Şeirləri dildən-dilə keçərək Türk dünyasını dolaşan, böyük sufi şairi və filosofu Əhməd Yəsəvinin həyat və

yaradıcılığı" adlanır və adından da göründüyü kimi, əsərdə şairin həyat və yaradıcılığından bəhs edilir (Şamil Ə., 2017, s. 50).

Xoca Əhməd Yəsəvi yaradıcılığına həsr edilmiş maraqlı məqalələrdən biri də X. Hümmətovadır. O, "Əhməd Yəsəvi hikmətlərində qəriblik" adlı məqaləsində XII əsrin böyük türk övliyası Əhməd Yəsəvinin təsəvvüf poeziyasının yaradıcılarından olduğunu diqqətə çatdırdıqdan sonra qeyd edir ki, onunla başlayan təsəvvüf şeiri sonrakı türk dünyasına ayaq açaraq öz arealını genişləndirməyə başlamışdır. Bu poeziya yarandığı gündən özünün deyim və ifadə tərzi ilə fərqlənmişdir. Təsəvvüf poeziyası inkişaf etdikcə öz simvolika sistemini yaratmış və təkmilləşdirmişdir. İlk yaranan şeir örnəklərində bu simvol və ifadə tərzi bəsit, sadə olmuş, zaman keçdikcə Qazi,Nəsimi, Füzuli poeziyasında daha da mürəkkəb şəkildə ifadə tərzini almışdır.

Tədqiqatçının sözlərinə görə, Əhməd Yəsəvi yaradıcılığı müasir oxucunun anlaya biləcəyi bir deyim biçiminə malikdir. Onun yaradıcılığı rəngarəng və çoxşaxəlidir. Bəzi hikmətlərində şair təsəvvüf ədəbiyyatının əsas mövzularından olan könül azadlığı, könül qırmanın böyük günah olması, insan könlünə böyük dəyər verilməsi kimi xüsusiyyətlərə Əhməd Yəsəvi yaradıcılığında böyük yer verir. Bəzi sufi şairləri insan könlünü müsəlmanların müqəddəs yeri olan Kəbə ilə müqayisə edərək üstünlüyü insan könlünə verməsi heç də təsadüfi deyildir.

X. Hümmətova daha sonra yazır ki, "İslam dinindən və onun peyğəmbərlərindən gələn insana bel bağlamaq, könül azadlığı, din sərbəstliyi mövzuları Əhməd Yəsəvinin yaradıcılığında daha incə mətləblərin anlamlarına xidmət edir.

Nərdə görsən gönlü qırıq, məlhəm ol,
Öylə məzlum yolda qalsa, yoldaş ol.
Məşhər günü dərgahına yaxın ol,
Bən-bənlik güdən kişilərdən qaçtım mən iştə.

Sünnət imiş, kafir də olsa, vermə zərər,
Gönlü kafi, gönül inciticidən Allah da şikayətçi.
Allah şahid öylə qula «Suçun» hazır,
Bilginlərdən eşitib bu sözü söylədim bən iştə.

Şair bütün insanlara dost gözü ilə baxır, kafirə də zərər verilməsini istəmir, çünki kafir də Allahın ümmətidir. Onu incidənlər öz əlləri ilə haqq dərgahında günahlarını yazmış, buna görə cavab verməli olacaqlarını onlara xatırladır".

Tədqiqatçının fikrincə, "Əhməd Yəsəvinin yaradıcılığında aparıcı yerlərdən birini də qəriblik mövzusu tutur. Şairin qəribliyi bəzən həqiqi anlamda, bəzən də təxəyyülünün ifadəsi kimi özünü göstərir.

Qərib, fakir, yetimləri sevindirsən,
Parçalayıb əziz canım öylə qurban.

Və ya başqa bir şeirində qəribin, yetimin halını sorandan Allahın da razı qalmasını belə deyir:

Qərib, fakir yetimləri hər kim sorar
Razı olar o qulundan Allah.

Əhməd Yəsəvi dövrünün övliyası olmaqla yanaşı, insanları bir-birinə dost, həmdəm, mərhəm olmağa, qəlbi sınıqlara, yolda qalanlara yoldaş olmağa çağırırdı. Qiyamət günündə hər bir insanın cavab verməli olacağını onlara xatırladırdı. Özünü öyən, mənəm-mənəlik iddiasında olan insanlardan uzaq olmağa səsləyirdi" (Hümmətova X., 2013).

## ƏDƏBİYYAT

1.Abdulla B. Yəsəvilik və Azərbaycanda şaman-dərviş mədəniyyəti: [şair, ortaq türk ədəbiyyatının ilk yaradıcısı Xoca Əhməd Yəsəvi haqqında] // "Ədalət". 2018. 21 fevral, s.7.
2.Bayat F. Xoca Əhməd Yəsəvi və xalq sufizminin bəzi problemləri. Bakı, 1997. 101 s.
3.Binnətova H. Türküstan piri – Xoca Əhməd Yəsəvi və Azərbaycan // Kastamonu Üniversitesi VI. Uluslararası Şeyh Şaban-ı Velî Sempozyumu (Yesevîlik). Aralık 2018, Kastamonu Baskı: Kastamonu Üniversitesi Matbaası, s. 536-541.
4.Əlioğlu P. Xoca Əhməd Yəsəvi yaradıcılığı və Azərbaycan ədəbiyyatı // "Ədəbiyyat" qəzeti, 2019.-14 sentyabr. №31, s. 24-25.
5.Əliyeva-Kəngərli, Gülşən. Sufizm. Bakı : Aspoliqraf, 2014. 160 s.
6.Həsənova S. Əhməd Yəsəvi və Azərbaycan filologiyası // Dil və ədəbiyyat (beynəlxalq jurnal). Bakı, BDU, № 2 (78), 2011, s. 143-145.
7.Hümmətova X. Əhməd Yəsəvi hikmətlərində qəriblik // Xuraman Hümmətovanın bloqu. Arxivləşdirilib: 11 Nisan 2013 Perşembe. http://xuramanhummatova.blogspot.com/2013/04/
8.Xəlilov B. Türkün hikmət xəzinəsi: Xoca Əhməd Yəsəvi. Bakı, "Elmi-təhsil" nəşriyyatı, 2010. 294 s.
9.Xəlilov P. İ. Əhməd Yəsəvi. Bakı: Azərnəşr, 1997. 42 s.
10.Mirəhmədov Ə. Yəsəvi və yəsəvilik Azərbaycanda // "Ədəbiyyat qəzeti" 17 dekabr 1993.
11.Mustafa Ə. Xoca Əhməd Yəsəvi Türküstandan doğan bir türk günəşi (2). Zaman. 2011. 22-24 yanvar, s. 10.
12.Novruzov T. Genetik yaddaş üstündə köklənmiş yaddaş və yaxud XocaƏhməd Yəsəvi irsinə yeni baxış.- ..." 525-ci qəzet. 2013. 4 may, s. 24-25.
13. Şamil Ə. Şeirləri ilə Türk dünyasını fətedən, islamı yayan Əhməd Yəsəvi // "Sebilürreşad" dergisi, 2017(hicri 1438), Şubat-Mart (Recep), sayı 1014, cild 41, s. 50-52.
14. Şamil Ə. Əhməd Yəsəvi. Şeirləri dildən-dilə keçərək Türk dünyasını dolaşan, böyük sufi şairi və filosofu Əhməd Yəsəvinin həyat və yaradıcılığı. // https://alishamil.tr.gg/%26%23399%3Bhm%26% 23601%3BdY%26%23601%3Bs%26%23601%3 Bvi.htm, 2018.
15. Şərifova S. Mənəvi-mədəni qaynaqlarımız: Əhməd Yəsəvinin bədii və fəlsəfi-dini irsi // 525-ci qəzet. 2016, 6 may, s. 5.

***AMEA Məhəmməd Füzuli adına Əlyazmaları İnstitutu**
**Beynəlxalq Əlaqələr Şöbəsi,**
**filologiya üzrə fəlsəfə doktoru**
**E-mail: r.huseynov.80@mail.ru***

**Rasim Huseynov**

## AHMAD YASAVI AND HIS RESEARCHERS IN AZERBAIJAN

One of the most important pages of today is the study of the personality and scientific and philosophical heritage of Khoja Ahmad Yasavi, a famous poet of the 12th century, one of the first thinkers of general Turkic literature and the creators of Sufi literature in the Turkish language.

Like all over the world, there is also great sympathy for Ahmad Yasavi's activity in Azerbaijan and it is no coincidence that his poems and philosophical-religious thoughts have always been in the interest of our researchers. It is necessary to mention specifically the name

of the researchers such as A.Mirahmedov, B.Abdulla, P.Khalilov, F.Bayat, G.Aliyeva-Kangarli, S.Sharifova and others.

**Keywords:** *Ahmad Yasavi, "Divani-Hikmat", poem, syllable, Sufism, philosopher, wisdom, national language, Turks.*

**Расим Гусейнов**

## АХМЕД ЕСЕВИ И ЕГО ИССЛЕДОВАТЕЛИ В АЗЕРБАЙДЖАНЕ

Одна из самых важных страниц сегодняшнего дня - изучение личности и научно-философского наследия Ходжи Ахмада Есави, известного поэта XII века, одного из первых мыслителей общетюркской литературы и создатели суфийской литературы на тюркском языке.

Как и во всем остальном мире, в Азербайджане есть большой интерес к творчеству Ахмада Есави, и не случайно, что его глубокие стихи и философско-религиозные взгляды всегда были и остаются в сфере внимания таких исследователей как А. Мирахмадов, Б. Абдулла, П. Халилов, Ф. Баят, Г. Алиева-Кенгерли, С. Шарифова и другие.

**Ключевые слова**: *Ахмад Есеви, «Дивани-Хикмет», стихотворение, слог, суфизм, философ, мудрость, национальный язык, тюрки.*

*(Akademik İsa Həbibbəyli tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 11.01.2021**
**Son variant 14.02.2021**